*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 68-73* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.68*

# İbn Hauqalın “əl-Məsəlik val-Məməlik” əsərində Siciliya haqqında məlumatlar

**Cəmilə Dəmirova**
Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Doktorantura və elmi inkişaf şöbəsinin müdiri
E-mail: jamiladamirova@yahoo.com

**Annotasiya.** Siciliyanın ərəblər tərəfindən fəth edilməsi buranın ictimai-siyasi və dini-mənəvi vəziyyətində köklü dəyişikliklərlə müşayiət olunur. Ada ilk baxışda islamlaşmış təsir bağışlasa da, dərindən araşdırdıqda burada qədim yunan fəlsəfəsinin, Bizans və slavyan mədəniyyətlərinin də təsiri özünü göstərir. Orta əsr ərəb mənbələri Siciliya əhalisinin çox da mömin olmadığını qeyd edirlər. Bu qeydlər sonradan müsəlmanlaşmış toplumların xarakter cəhəti kimi qəbul edilə bilər. Siciliyaya ərəb-bərbər qoşunları tərkibində gəlmiş və burada möhkəmlənmiş müsəlmanlar yerli əhali ilə qaynayıb-qarışır, nəticədə yeni, bir sıra özəllikləri ilə fərqlənən bir toplum yaranır. Yerli siciliyalıların bir qismi islamı qəbul etsələr də, onlar cəmiyyətdə müsəlmanlarla bərabər status qazana bilmirlər. Bərbərlər yerli əhaliyə aşağı gözlə yəni yuxarıdan aşağı baxırdılar. Siciliyanın fəthi ərəblər üçün həm coğrafi cəhətdən, həm də adanı bürüyən vəba xəstəliyi səbəbindən çox da asan olmadığı kimi yerli əhali üçün də ağır və ağrılı-acılı idi. Burada Bizans imperatorluğunun maraqlarının olması vəziyyəti daha da çətinləşdirirdi.
Siciliya yaşayış üçün olduqca münasib bir yer idi. Adanın təbiəti - həm bitki və heyvanlar aləmi, həm də təbii sərvətləri buranı olduqca cəlbedici edirdi. Görünür, elə məhz buna görə IX əsrin ortalarında Siciliyanı fəth etmiş müsəlmanlar adını tərk etmək istəməyib. Qeyd edək ki, bir zamanlar burada çox əhali yaşamırdı. Müsəlmanlar buranı fəth etdikdən sonra Afrika əhalisi bura axışıb gəldi, onlar burada qərar tutub qaldılar, məskunlaşdılar. Gözəl yaşayış qurdular.
Onu da qeyd etmək lazımdır ki, Siciliyada yaranan ərəb mədəniyyətinin ömrü bu ölkədə ərəb siyasi hakimiyyətindən daha uzun olmuşdur. Burada formalaşmış ərəb ədəbiyyatı ərəb ağalığı normanlar tərəfindən sonlandırıldıqdan sonra - təqribən bir əsr müddətində norman krallarının himayəsi altında da inkişaf etməyə davam edir. Norman kralları ədbi və şairləri himayə edir, onları öz saraylarına dəvət edirdilər.
**Açar sözlər:** Siciliya ədəbiyyatı, Palermo, Siciliya ərəb ağalığında, Qərbdə yaranan ərəb ədəbiyyatı, Müsəlman Siciliyası

**Məqalə tarixçəsi**: göndərilib – 20.02.2025; qəbul edilib – 11.03.2025

## Information about Sicily in Ibn Hawqal's work "al-Masalik wal-Mamalik"

**Jamila Demirova**
PhD in Philology
National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi
Head of the Department of Doctoral Studies and Scientific Development
E-mail: jamiladamirova@yahoo.com

**Abstract.** The conquest of Sicily by the Arabs was accompanied by radical changes in its social-political and religious-spiritual situation. Although the island has an Islamized effect at first glance, the influence of ancient Greek philosophy, Byzantine and Slavic cultures can be seen here. Medieval Arab sources note that the people of Sicily were not very pious. These records can be considered as a characteristic of later Muslimized societies. The Muslims who came to Sicily as part of the Arab-Berber troops and consolidated here mingled with the local population, as a result of which a new society was created, distinguished by a number of peculiarities. Although some of the local Sicilians have converted to Islam, they do not have the

same status as Muslims in society. Berbers looked down on the local population. The conquest of Sicily was not very easy for the Arabs, both geographically and because of the plague that covered the island, and it was also difficult and painful for the local population. The presence of the interests of the Byzantine Empire made the situation even more difficult.
Sicily was a very affordable place to live. The nature of the island - both flora and fauna, as well as natural resources made this place very attractive. Apparently, this is precisely why the Muslims who conquered Sicily in the middle of the 9th century did not want to leave the name. It should be noted that at one time not many people lived here. After the Muslims conquered this place, African people flocked here, they settled and settled here. They made a nice living.
It should also be noted that the life of the Arab culture that arose in Sicily was longer than the Arab political power in this country. The Arabic literature formed here continued to develop under the patronage of the Norman kings for about a century after the Arab rule was ended by the Normans. Norman kings patronized writers and poets and invited them to their palaces.
**Key words:** Sicilian literature, Palermo, Sicily under Arab rule, Arabic literature that originated in the West, Muslim Sicily

**Article history:** received – 20.02.2025; accepted − 11.03.2025

***İşlənmə metodikası:*** Hazırki məqalə fakt və materialların toplanıb analiz edilərək, tarixilik prinsipi əsasında hazırlanmışdır.

## Giriş / *Introduction*

Ərəb fəthlərinin ən yüksək mərhələsi Raşidi xəlifələr və Əməvi xilafəti dövrünə təsadüf edir. Əməvilər hətta Fransa sərhədlərinədək gedib çıxırlar. Abbasilərin hakimiyyətə gəlməsi ilə fütuhat sanki dayanmış olur. Abbasi xəlifələrinin əsas qayğısı qazanılmış uğurların saxlanmasına, fəth edilmiş ərazilərdə hakimiyyətin möhkəmlənməsinə yönəlir. Siciliya IX əsrdə – 878-ci ildə Əğləbi sülaləsi tərəfindən fəth edilərək iki əsrdən artıq – XI əsrin ortalarınadək bir dövrdə ərəb ağalığı altına düşür. Beləliklə, Siciliyada müsəlmanların, xristianların və yəhudilərin birgə yaşadığı multikultural bir cəmiyyət formalaşır.

## Əsas hissə / *Main Part*

Məlumdur ki, sivilizasiyaların qovuşması özünü daha çox memarlıqda göstərir. Uott (Watt) İspaniyada müsəlman memarlığından danışarkən burada bir sıra üslubların qovuşmasını qeyd edir. Kardovadakı Böyük Məsciddə arkaların nalvari olması xristian arxitekturasına xas cəhət idi [2, s 79]. Çox güman ki, bu məscidin tikilməsini həyata keçirən roma memarlarının üstünlük verdiyi üslub idi. Eləcə də, Mədinət əl-Zəhra planlaşması və şəhər divarlarının bəzənməsi bizans memarlığına xas olan cəhətləri əks etdirirdi. Bu səbəbdən İspaniyadakı müsəlman mədəniyyəti özündə həm Qərb, həm də Şərqə xas olan cəhətləri cəmləyir [2, s 80].

Eyni mülahizələri Siciliyanın müsəlman memarlıq abidələri barədə də söyləmək olar. Siciliya haqqında maraqlı məlumatlar İbn Hauqalın "المسالك والممالك" (əl-Məsəlik va-l- məməlik – Yollar və məmləkətlər) əsərində cəmlənib. İbn Hauqal adıçəkilən əsərində Siciliyada məscidlərin çoxluq təşkil etdiyini qeyd edir. Siciliyanın şəhərləri özündə həm müsəlman, həm qədim yunan və roma, həm də slavyan memarlığına xas cəhətləri birləşdirir. Kilsələrin məscidlərə çevrilməsi, dairəvari müsəlman şəhərlərindən fərqli şəhərlərin salınması, daş hasarların və qalaların çoxluğu Siciliyanın ümumi arxitektur mənzərəsi idi.

Siciliya şəhərlərinin ibadətgahları bütün məhəllələr boyu yayılıb. Bəzi ibadətgahlar əvvəl xristian kilsəsi olub, amma müsəlmanların fəthindən sonra dəyişdirilib məscid olub. İbn Hauqal bu məscidlərin biri barədə yazır:

*“Palermo məhəlləsində böyük bir cümə məscidi var. Bu məscid vaxtı ilə romalıların ibadətgahı olub. Məsciddə böyük bir məbədgah var. Mən bəzi məntiqli adamlardan eşitdim ki, yunan filosofu Aristotel burada məbədgahda asılan taxta tabutda dəfn edilib. Sonra müsəlmanlar buranı məscid edir. Xristianlar bu qəbri müqəddəs bilir və bura gəlib dualar edirlər”* [4].

Məlumdur ki, qədim yunan-roma sivilizasiyasında filosoflara böyük ehtiramla yanaşılıb. Onların bəzilərinin hətta peyğəmbərliyə yaxın statusda olub. Bu səbəbdən də Aristotelə aid edilən tabutla bağlı fikirlər təəccüb doğurmamalıdır. Bu həm də qədim insanların əcdadlara sitayiş inancı ilə bağlı idi. Qranara (Granara) İbn Hauqala istinadən yazır:

*“Onlar (palermolalılar) klassik yunan ənənələrini qoruyub-saxlayırlar. Bu ənənələr onlara əcdadlarından miras qalıb. Deyilənə görə, onlar öz ölülərini bu səbəbdən asırdılar ki, insanlar rahatca onlara baxıb ibadət edə bilsinlər, yağış duası oxusunlar, şəfa diləsinlər, başlarına gələn müsibətlərdən xilas duası etsinlər. Mən özüm orada (tavandan) asılı vəziyyətdə böyük bir sandıq görmüşəm ki, çox güman ki, tabut onun içində idi”* [1, s 95].

Məscid içərisindəki tabut əslində kosmopolitan bir cəmiyyətdə dinlərin, inancların bir-birinə uyğunlaşmasından xəbər verir. İslama tam zidd olan politeist elementlərin qədim çoxallahlılıq dinlərinin mərkəzlərindən birində ölülərə və tabutlara sitayiş şəklində zühur etməsi inanc sistemləri arasında razılığa, mədəniyyətlərarası dialoqa dəlalət edir.

Şəhər kənarında وادي العباس (Vadi-l-Abbas) adlanan böyük bir vadi var. Burada çoxlu dəyirmanlar var, lakin bura bağ salmaq üçün yararlı deyil.

Şəhərin yeni məhəlləsi الحارة الجديدة (əl-harra əl-cədidə) ən böyük məhəllədir. Bu məhəllə məscid məhəlləsinə çox yaxındır. Bu iki məhəllə arasında sərhəd yoxdur. Ən çox dükanlar bu iki məhəllə arasında yerləşir. Burada yağ bazarı, pul dəyişmə dükanları, əttarlar var. Bu dükanların çoxu şəhər kənarında yerləşir. Burada çəkməçi, zərgər, silah düzəldən sənətkarların dükanları var. Burada buğda və digər məhsulların dükanları var. Beləliklə, şəhərin ticarət həyatı ilə bağlı məlumatlar burada ticarət və sənətkarlığın güclü inkişafından xəbər verir. Hər bir sənət sahiblərinin ayrıca məhəllələri olması anlaşılır.

Şəhər kənarındakı البيضاء (əl-Bayda) adlanan yerdə karvansaraylar yerləşir. Bunların bir çoxu saysız müharibələr nəticəsində dağılıb məhv olmuşlar [1, s 97].

İbn Hauqal davam edib Palermoda 200 məscid olduğunu bildirir. Halbuki, onun səyahət etdiyi iri şəhərlərin heç birində bu sayda məscid yoxdur. “Mən yalnız Kardovada bu qədər çox məscid olduğunu eşitmişəm. Amma mən buna şübhə edirdim. Siciliyadakı məscidləri isə öz gözümlə gördüm” [1, s 97]. Bir dəfə fəqih Muhəmməd əl-Qafsinin evində idim. Onun evinin yanındakı məsciddən bir ox atımı məsafədə düz on məscid var idi. Bunun səbəbini soruşarkən mənə dedilər ki, adamlar burada öz məscidlərini tikməkdən qürur duyurlar. Əbu Muhəmmədin məscidinin düz yanında oğlu üçün ayrıca məscid tikilib ki, o burada fiqhi öyrənsin”. İbn Hauqal göstərir ki, oğul o qədər yekəxanadır ki, o özünü atası ilə övlad kimi deyil, tay-tuş kimi aparır [1, s 97].

Müsəlman dünyasına IX əsrin ortalarında qoşulmuş bir adada bu qədər çox məscid olması təəccüb doğurur. Ola bilsin ki, İbn Hauqal məscid adlandırdığı bu ibadətgahlar xristian dünyasındakı “çapel” (chapel) xarakterli kiçik məbədlərdir. Adətən hər bir ailənin özünün kiçik məbədi olması halı xüsusi ilə slavyanlar arasında geniş yayılıb. Ruslar buna “молельня” deyirlər. Bu, camaat üçün deyil, şəxsi ibadət üçün nəzərdə tutulan kiçik tikililərdir. Siciliyadakı məscidlərin də məhz belə kiçik ibadətgahlar olmasını zənn edə bilərik. Bu halda da müxtəlif dinlər arasındakı qarşılıqlı təsirin nə qədər güclü olmasını görməmək mümkün deyil.

Digər tərəfdən, məscidlərin tikilməsi adanı islamlaşdırmaq siyasətinin əsas vasitəsi kimi də diqqəti çəkir. Belə ki, İbn Hauqal burada 700 adam tutan məscid olmasını qeyd edir. Bir çox məscidlər isə təxminən 300 nəfər üçün nəzərdə tutulurdu ki, bu da kiçik rəqəm deyil [1, s 96] [3, s 120].

İbn Hauqal Siciliyalıların digər müsəlmanlara bənzəmədiyini qeyd edir:
*"Bu firqənin (Siciliya müsəlmanlarının – C.D.) halı islamın digər firqələrinin halı kimi deyil. Buna bənzər bir din, buna bənzər bir ölkə, bunlarınkı kimi bir bidətçilik yoxdu. Heç bir dində buna bənzər bir hal görmədim. Onlar hamısı şarlatandır, istər qala, istə çöl, istər kənd sakinləri olsunlar. Onlar xristianlarla evlənirlər, övladları, ataları kimi hoqqabaz olur, anaları xristian qadınları olmasından isə onlar namaz qılmır, təharət etmir, zakat vermir, həcc ziyarətinə getmirlər. Amma aralarında ramazan ayında oruc tutanlar var. Oruc tutarkən onlar qüsl edib pisliklərdən təmizlənirlər. Amma başqaları bu gözəl işdə və fəzilətdə onlara şərik olmurlar. Onlar cəhalətdə birinci yerdədirlər"* [3, s 123].

Gördüyümüz kimi, Siciliyanın dini-əxlaqi durumu tam fərqli bir tərzdə olub. İbn Hauqal görünür şəxsi rəyini əsas tutaraq ada əhli barədə bir sıra xoşagəlməz ifadələr işlədir. Onları oyunbazlıqda, dinsizlikdə təqsirləndirir. Amma burada xristian müsəlman nigahlarının çoxluğu da nəzərə çarpır. Təbii haldır ki, qəzavata kişilər gedirdi. Onlar bir yerdə məskunlaşarkən yerli icmadan olan qadınlarla nigaha girirdilər. Siciliyada da ailələrin böyük əksəriyyətinin qarışıq nigahı olması şübhə doğurmur. Müsəlman kişilər yerli xristian qadınlarla evlənirdilər. İbn hauqal Siciliya əhalisinə olan etinasızlığının səbəbini məhz bu cür nigahlarda görür.

Siciliyaya səfərindən təsirlənən İbn Hauqal bu səfərdən aldığı təəssürat barədə on fəsildən ibarət bir əsər yazdığını bildirir [3, s 122]. Həmin kitabın təsvirindən ədibin Siciliya əhalisi barədə nə qədər ziddiyyətli düşündüyü məlum olur:
"*Bu kitabda Siciliya əhalisindən geniş şəkildə bəhs etdim. Onların ağıl və düşüncəsinin azlığını, cəhalətinin kəskinliyini, səfehliyini, onların ayıqlıqdan uzaq olmasını vəsf etdim. Özləri qəflətdə olmasına baxmayaraq, başqalarını məharətlə məzəmmət etmələrini, cahilcəsinə xarab ərzaqlarla qidalanmalarını, təxəyyüllərinin pisliyini qələmə aldım. Bütün bunlar barədə yazdığım kitabı on fəslə böldüm. Kitabı şəhər, qəbilə və ölkə əhalisinin fəxr etdiyi işlərlə başladım. Onlara aid edilən fəzilətlərləri göstərdim, onların şəhər və əyalətlərdəki həyatını təsvir etdim. Kitabda eləcə də, bəzilərinin fəxarət, gözəllik və yaxşı xasiyyətdən xali, rəzil olduqlarını bildirdim. Əsəri "Sıqıllı kitabı" adlandırdım. Mən onların heç bir problemini, fərqləndikləri rəzilliyini təsvir etməmiş buraxmadım. Onların bütün xüsusiyyətlərini, ətalarını, haram bildiklərini, təbiətlərinin naqisliyini, əxlaqlarının pisliyini, pis iylənmiş yeməklər yeməsini, qələmə aldım"* [3, s 122-123].

İbn Hauqal Siciliya əhalisinə aid etdiyi mənfi xüsusiyyətlərin onların pis qidalanması və çirkab su içməsi ilə bağlayır. O göstərir ki, Palermo əhalisinin içdiyi su təmiz deyil. Təmiz su olmadığından əhali bu suyu içməyə məcburdur. Onlar kobud və kütbeyindirlər. Bu da onların çox soğan yeməsi ilə bağlıdır. Kasıbı da, varlısı da bütün günü soğan yeyir. Onların təxəyyülünün pozulması, şüurlarının korlanması, hissiyyatlarının kütləşməsi, hətta üz cizgilərinin dəyişməsi bununla bağlıdır [3, s 118].

Məlumdur ki, soğanda anti-bakterial xüsusiyyət var. Görünür, bunu bilən Siciliya əhalisi çirkli suyun zərərindən qurtulmaq üçün soğanı öz rasionlarına daxil ediblər. Amma soğanın beyin fəaliyyətinə mənfi təsiri düzgün fikir deyil. Əksinə, soğanın tərkibinə daxil olan kversetin (Quercetin) yaşla əlaqəli yaddaş zəifliyinin qarşısını alan bir maddədir. Bu səbəbdən, İbn Hauqalın Siciliya əhalisini cahillikdə və səfehlikdə təqsirləndirib bunun səbəbini onların soğan yeməsində görməsi ağlabatan deyil.

Ümumiyyətlə, İbn Hauqalın məlumatlarından Siciliyada ərəb dilinin vəziyyətinin çox da yaxşı olmadığı anlaşılır. Burada insanlar xütbə zamanı iraba riayət etmir, xətalar edirlər. Görünür, İbn Hauqal bu fikrində də subyektivliyə meyllidir. Çünki Siciliyadan bir çox görkəmli ədib və şairlərin çıxması məlumdur.

## Nəticə / *Conclusion*

İbn Hauqalın "əl-Məsəlik val-Məməlik" əsərində Siciliya haqqında verilmiş məlumatlar, IX–X əsrlərdə adada mövcud olan sosial, dini və mədəni münasibətlər sistemini dərinliklə əks etdirir. Mənbədə qeyd olunan çoxsaylı məscidlər, memarlıq üslublarının müxtəlifliyi və multikultural həyat tərzi Siciliyanın öz dövründə unikal bir mədəniyyət sintezini yaşadığını göstərir. Ərəb-Bərbər mənşəli müsəlmanlarla yerli əhali arasında baş verən sosial qarşılıqlı təsirlər, qarışıq nikahlar və dini fərqliliklər bu coğrafiyanın nə qədər mürəkkəb və rəngarəng olduğunu ortaya qoyur. İfadə olunan tənqidi fikirlər isə dövrün ictimai baxışlarını və dini-tarixi yanaşmalarını dəyərləndirmək baxımından əhəmiyyətlidir. Bütün bunlar Siciliyanın yalnız bir fəth məkanı deyil, eyni zamanda sivilizasiyaların qovuşduğu və qarşılıqlı təsirə girdiyi mühüm bir mədəniyyət mərkəzi olduğunu təsdiqləyir.

## Ədəbiyyat / *References*


1. Granara, William "Ibn Hawqal in Sicily / ابن حوقل في صقلية." Alif: Journal of Comparative Poetics, no. 3, 1983, pp. 94–99
2. W.Montgomery Watt, The influence of Islam on Medieval Europe, Edinburgh University Press, 1972, 134 p
3. ابن حوقل، كتاب صورة الارض، منشورات بيروت، دار مكتبة الحياة، 1992، 439 ص
4. Ibn Hawqal's Description of Palermo & Why You Should Not Eat Raw Onions | In Nomine Jassa
5. https://shamela.ws/book/11780


## Сведения о Сицилии в произведении Ибн Хаукаля "ал-Масалик валь-Мамалик"


**Демирова Джамиля**
Кандидат филологических наук
Национальный музей азербайджанской литературы имени Низами Гянджеви
Заведующая отделом докторантуры и научного развития
E-mail: jamiladamirova@yahoo.com



**Резюме.** Завоевание Сицилии арабами сопровождалось радикальными изменениями в ее общественно-политической и религиозно-духовной ситуации. Хотя на первый взгляд остров имеет исламизированный эффект, здесь можно увидеть влияние древнегреческой философии, византийской и славянской культур. Средневековые арабские источники отмечают, что жители Сицилии не были очень набожны. Эти записи можно рассматривать как характеристику более поздних мусульманских обществ. Мусульмане, пришедшие на Сицилию в составе арабо-берберских войск и закрепившиеся здесь, смешались с местным населением, в результате чего было создано новое общество, отличающееся рядом особенностей. Хотя некоторые местные сицилийцы приняли ислам, они не имеют такого же статуса в обществе, как мусульмане. Берберы смотрели свысока на местное население. Завоевание Сицилии далось арабам не очень легко как географически, так и из-за охватившей остров чумы, а также было трудным и болезненным для местного населения. Наличие интересов Византийской империи еще больше осложняло ситуацию.

Сицилия была очень доступным местом для жизни. Природа острова – как флора, так и фауна, а также природные богатства сделали это место очень привлекательным. Видимо, именно поэтому мусульмане, завоевавшие Сицилию в середине 9 века, не хотели оставлять это название. Следует отме-

тить, что когда-то здесь проживало не так много людей. После того как мусульмане завоевали это место, сюда стекались африканцы, они селились и обосновались здесь. Они неплохо зарабатывали.

Следует также отметить, что жизнь арабской культуры, возникшей на Сицилии, была дольше, чем арабская политическая власть в этой стране. Сформировавшаяся здесь арабская литература продолжала развиваться под покровительством норманнских королей еще около столетия после того, как норманны положили конец арабскому владычеству. Нормандские короли покровительствовали писателям и поэтам и приглашали их в свои дворцы.

**Ключевые слова:** Литература Сицилии, Палермо, Сицилия под властью арабов, арабская литература, возникающая на Западе, Мусульманская Сицилия